F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Böyük qəlbli uşaq yazarı- Sevinc Nuruqızı

**Uşaq yazıçısı Sevinc Nuruqızının 60 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Aynurə Əliyeva**
**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Böyük qəlbli uşaq yazarı-** Sevinc Nuruqızının 60 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; red. Məmmədli R. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. – 21 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## Giriş

Bədii ədəbiyyat və incəsənət insan fikrinin, insan istedadının və əməyinin elə sahələridir ki, yer üzündə yaşayan bütün adamların həyatına, mənəvi aləminə həmişə təsir göstərir. Dünyada ruhən elə bir sağlam adam təsəvvür etmək olmaz ki, o ya ahəngdar musiqidən, ya parlaq memarlıq və rəssamlıq əsərindən, yaxud gözəl deyilmiş müdrik mənalı sözdən, bayatıdan, nağıldan, rəvayətdən ləzzət almasın. Mənalı, müdrik sözün yüksək forması olan xalq ədəbiyyatının, klassik və müasir ədəbiyyatın ən yaxşı, ən dolğun nümunələri isə bütün xalqlar arasında əldən-ələ düşmüşdür. Bəşəriyyətə öz bədii dühasından böyük və ya kiçik bir yadigar, bir pay verib getmək, ilk növbədə övladı olduğun xalqın həyatı, dünəni və bu günü haqqında arzu və qayğıları, fikir və duyğuları haqqında, vətən təbiəti yazıb-yaratmaq həqiqi sənətkar ömrünün əsas məramı, qayəsi olur. Beləcə illər keçir, xalqın yetirib boya-başa çatdırdığı ədəbi nəsillər, bir-birini əvəz edir. Yazıçı adətən bir sənət əsərində, bir də həyat yolunu işıqlandıran səhifələrdə yaşayır.

Yazıçı ömrü!.. Yazıçının həyat yolu!.. O, təkcə qələm əhli üçün yox, bəzən hətta milyonlarla siravi oxucu üçün də gərəkli və ibrətamiz olur; biri az, biri çox – hər halda ömrünü sənətə, insanların zehni, estetik tərbiyəsinə həsr edən həqiqi sənətkarın keçdiyi həyat yolunun xələflərinə, onun mənsub olduğu xalqın balalarına, şəksiz mənəvi səmərə verir, yeri doldurula bilməyən töhfə, deyərdim ki, mədəni irs qoyub gedir...

Uşaq yazarı olmaq, uşaqlara yazmaq isə gələcəyə işıq tutmaq deməkdir. Onların mənəvi dünyalarını zənginləşdirmək, rəngarəngliyə boyamaq, təxəyyüllərini qədərsiz, sərhədsiz etmək deməkdir. Bütün balaların sevimlisi, istəklisi, məktəblinin dostu Sevinc Nuruqızı belə çağdaş dövr yazarlardandır. Onun səmərəli yaradıcılıq yolu, bütün həyatına sirayət edir desək, yanılmarıq.

Bu il İmanova Sevinc Nuruqızının 60 yaşı tamam olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ***“Novator yazar - Sevinc Nuruqızı”*** adlanır. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## *Həyat və yaradıcılığı*

Sevinc Nuruqızı 1964-cü il avqustun 22-də Bakı şəhərində anadan olmuşdur. Ağdam rayonunu Şelli-Qaradağlı kənd orta məktəbində təhsil almışdır (1971–1981-ci illər). O, M. F. Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir (1981–1986). Əmək fəaliyyətinə Ağdam rayonu Şelli-Qaradağlı k. orta məktəbində rus dili və ədəbiyyatı müəllimi kimi başlamışdı. (1986–1991). Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Mədəniyyət" qəzetində baş redaktorun müavini (2003–2006), "Minamedia" nəşriyyat evində "Cırtdan" və "Ümid" uşaq jurnallarının yaradıcı heyətinin direktoru (2006–2007), İctimai Radionun efirində həftənin altı günü canlı yayımlanan "Çoxbilmiş" və

"Nağıl saatı" verilişlərinin redaktoru və aparıcısı (2006–2007), F. Köçərli adına Respublika Uşaq Kitabxanasının təsis etdiyi "Göy Qurşağı" uşaq jurnalının redaktoru olmuşdur (2015–2021). Hazırda "Təhsil" və "Aspoliqraf" nəşriyyatlarında böyük redaktor və uşaq ədəbiyyatı şöbəsinin müdiri kimi fəaliyyət göstərir. (2007-dən).

***Mükafatları və nailiyyətləri***

Qarabağ ağrıları, müharibənin gətirdiyi dəhşətlər, əsir soydaşlarımızın işgəncə dolu həyatına həsr edilmiş "Qisas" adlı pyesi Ə. Haqverdiyev ad. Ağdam Dövlət Dram Teatrının (2006), "Gəlinciklər" adlı tamaşası Salyan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuşdur (2006). Dövri mətbuatda dərc edilən yüzlərlə publisistik yazının müəllifidir. Əsərləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, bir çox mükafatlara layiq görülmüşdür."Melisa" əsəri əsasında eyniadlı "Melisa" tamaşası Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuşdur (2023)

2002. AYB-nin ən yaxşı uşaq əsərinə görə Tofiq Mahmud ad. Mükafatı:

2013. "Yeni uşaq mahnıları — 2013" müsabiqəsində "Günəş" (Söz. Sevinc Nuruqızı, musiqi Məryəm Əlibəyli) mahnısı ilə 4-cü yer;

2015. Türkiyənin Azərb.-dakı Səfirliyinin AYB ilə birgə elan etdiyi "Çanaqqala — 100" müsabiqəsində şeir nominasiyası üzrə "Çanaqqala keçilməz" adlı poemasına görə birinci yer;

2015. "Qədim Bakıya səyahət" kitabına görə Azərb. Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl Kəlmə" ədəbi mükafatı;

2015. "Qədim Bakıya səyahət" kitabı ilə Moskvada keçirilən Beynəlxalq Kitab Sənəti müsabiqəsində birinci yer;

2015. "Ədəbi Azadlıq - 2015" hekayə müsabiqəsində "Edam" hekayəsi ilə 2-ci yer;

2015. Azərb. Təhsil Nazirliyinin "Kiçikyaşlı məktəblilər üçün ən yaxşı nəsr, nəzm, dram əsərləri" müsabiqəsində nəsr əsərləri üzrə birinci yer;

2015. Azərb. Təhsil Nazirliyinin "Kiçikyaşlı məktəblilər üçün ən yaxşı nəsr, nəzm, dram əsərləri" müsabiqəsində dram əsərləri üzrə birinci yer;

2016."Azanfilm" studiyasının elan etdiyi "Mənim ideyam var" süjetlər müsabiqəsində kiçikyaşlı uşaqlar üçün "Qaz balası Qaqa" adlı süjetlər silsiləsi (20 hissədən ibarət) öz orijinallığı və müsabiqənin konseptinə uyğunluğu ilə müsabiqənin baş qalibi;

2017. Azərb. — Avropa Təşkilatının (TEAS) Böyük Britaniyadakı təmsilçiliyinin "KHOJALY LİTERARY PRİZE " müsabiqəsində "Xocalıya" poeması ilə üçüncü yer;

2018. Azərb. Resp. Mədəniyyət Nazirliyinin elan etdiyi "Birpərdəli pyeslər" müsabiqəsində "Al çobanyastığı ləçəkləri" adlı pyesi ilə üçüncü yer;

2018. İLESAM-AKÇAĞ 9. Türkiyənin İLESAM-AKÇAĞ UŞAQ ƏDƏBİYYATI ROMAN, HEKAYƏ VƏ NAĞIL- 2018 (KİTAB DOSYASI) müsabiqəsində roman janrında "Melisa" əsərinə görə birinci yer;

2019. İbtidai sinif müəllimlərinin İkinci Təhsil forumunda təhsilin inkişafında xidmətlərinə görə "Nəsib bəy Yusifbəyli" adına mükafat.
2020. "Ədibin Evi" Mir Cəlal adına ikinci hekayə müsabiqəsinin "Kəpənək ömrü" hekayəsi ilə qalibi;
2021. Azərb. Resp. Mədəniyyət Nazirliyinin vətənpərvərlik mövzusunda ədəbi müsabiqəsinin "Ölərəm dərdindən, bunu bil" adlı hekayəsi ilə qalibi olmuşdur (2021).
2022. Azərb. Resp. Mədəniyyət Nazirliyinin təsis etdiyi "Şuşa 270" döş nişanına layiq görülmüşdür.

**Yubiley tədbirlərinin keçirilməsi**

Azərbaycan müasir dövr ədəbiyyatının şairəsi, yazıçı, tərcüməçi Sevinc Nuruqızının anadan olmasının 60 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Yazıçını sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Sevinc Nuruqızı – 60”, “Novator yazar - Sevinc Nuruqızı” , “Sevimli uşaq yazarı - Sevinc Nuruqızı”, “Ziyalı qələm sahibi”, “Məhsuldar ömür adamı” və s.



Uşaqların sevimli yazıçısı Sevinc Nuruqızının "Çərpələng", "Ağ xoruzun hekayəti", "Aysu və Ay", "Qəribə kəndin nağılı", "Sarı qız", "Melisa", "Ağca və Cuppulu" "İpəkçinin məcaraları" və s. kitabları az yaşlı oxucular tərəfindən sevə-sevə və böyük maraqla oxunulur. Bu maraqlı kitablardan biri də "Ciya ilə iki gün" kitabıdır. Bu kitabda Fəxriyyə, onun pişiyi Myaomırr, Ciya və Damdabacının başına gələn maraqlı əhvalatlardan, onların dostluğundan bəhs edilir. Kitabda uşaqlara dostluq, yoldaşlıq kimi yaxşı xüsusiyyətlər aşılanır.

https://drive.google.com/file/d/146FeeeE2mv1dFXvVbpAtuRDv67gz5W1o/view
https://drive.google.com/file/d/14R33fc4AbpD2TQ5CweetpRXMKR3h-hpF/view
https://drive.google.com/file/d/1jj-XTwSv3OaOVGrO-HZXXbRBg1nSTsA2/view
https://drive.google.com/file/d/1DV9ryYzmZZfBBhH7p485TwRuIAClBCQw/view
https://drive.google.com/file/d/1gN3mo2LbqW2EaBr7qynt7mXDUi81QEZj/view
https://drive.google.com/file/d/1XwZ3zvwm6HDRINhOUbjDfTZARzylfUwI/view
https://drive.google.com/file/d/1BkSW3eEc8QkcerfR8OzADy5SAppvfWsH/view
https://drive.google.com/file/d/1jVozt4La_UG5fRVtaAf-7-YujwuFamfZ/view

https://drive.google.com/file/d/1H0Zc2xwESu8KWDkvOO9qlMOKIefvyMiE/view
https://drive.google.com/file/d/1gr2yvEIZwqC5WW0B5Gn-FAO6chCQKmHr/view
https://drive.google.com/file/d/1kiLvcF8Km52Qk0CnhKm47k6e8_afMtpw/view
https://drive.google.com/file/d/1Xedai6VI-NwNsmLuiSiiqRrm4xtYKlm0/view
https://drive.google.com/file/d/13SKWsVfmorq_BQhYtSSvC4R30Cgki-HJ/view
https://drive.google.com/file/d/1DeRproKZK9mVlBSRJ428qOeZRiH3nwmk/view
https://drive.google.com/file/d/11HqAQchW57v7kft3AmI_k3JETAKF5fCh/view
https://drive.google.com/file/d/1HxGljXB_9n6rS-qndGRDPRoIULiJMJ45/view
https://drive.google.com/file/d/1LcmJjwUV4Hz4hA0Yg31njjEiwJNtS5dY/view
https://drive.google.com/file/d/1A62vkPw5UCAyby9c-q2HUn2jznM1wvvm/view
https://drive.google.com/file/d/1aeFkCQrmYsabgEU8ufl8cEFCWuwIusQg/view
https://drive.google.com/file/d/1qmJjRUpTCkDSjAnN5P3eNa86X5SYNaxe/view
https://drive.google.com/file/d/1SHOJex7JFHNk7XkvGcW-jYk__pBQqMLx/view
https://drive.google.com/file/d/1CGJvg8jYZ-ZMiWh1Qzu-BwPw_gCyCjcr/view
https://drive.google.com/file/d/1V4eyCp6M8N07r5UK0P-rR0aLzcD_Uvv1/view
https://drive.google.com/file/d/1zE8Z4GZKIOoyVIRTUqu7UIGYoyUrF34O/view
https://drive.google.com/file/d/1-AFUzr3h7Q0Jc40ZHSYYb70mLSFjiQ5Z/view
https://drive.google.com/file/d/1c0oOiV4fJy1EhpmpdfeFdlKTOxW5--Uq/view
file:///C:/Users/Ruhiyya.mammadli/Desktop/Nuruqizi_Sevinc-Agabeyim_aga.pdf
https://www.youtube.com/watch?v=iVTaz9HOlWI
https://www.youtube.com/watch?v=_k22VxApzQc
https://www.youtube.com/watch?v=GRS7zwSzhLs


































Sevinc Nuruqızının 60 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *“ Mən dilimi əsrlərin sınağından qorumuşam”* adlı şeir müsabiqəsi ola bilər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. Şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.

*Birinci iştirakçı "Elə payız gələni" adlı şeirini intonasiya ilə deyir.*

Payız gəlib, günəşdən
Borc alıb sarı donu.
Küləklər gətiriblər
Qolları üstə onu.

Yarpaqlardan rəngbərəng
Çələngi var başında.
Dəcəlliyindən qalmır
O, hələ bu yaşında.

Almalardan boynunda
Yaqut boyunbağı var.
Atını oynatdığı
Bağçası var, bağı var.

Qızıl sapla işlənib
Yaylığının yeləni.
Əl-ayaq çəkilibdir
Elə payız gələni.

*İkinci iştirakçı "Xəzərim" adlı şeirini intonasiya ilə deyir.*

Günəş çimir sularında,
Yuyur onu ləpələri.
Səma deyir ulduzlara:
- Xəzərimə səpələnin.

Səpələnin, mavi sular
Yırğalasın sizi gecə.
Buruqları gen sinəyə
Yaraşıqdır görün necə.

Sahilləri yuyan mavi
Dalğaların qırçını ağ.
Xəzri əsir, varaqlayır
Xəzərimi varaq-varaq.

Qağayılar sular üstə
Aram-aram enir-qalxır.
Günəş batır odlu şartək
Xəzərim ardınca baxır.

*Üçüncü iştirakçı "Ana dili" adlı şeirini intonasiya ilə deyir.*

Mən dilimi əsrlərin sınağından
qorumuşam,
Mən dilimi yad ellərin qınağından
qorumuşam.
Qarabağım bu dilimlə əzizlənib,
Qara bağrım bu dilimlə təmizlənib.
Mənə əziz ana olub, dar günümdə
Mən dərdimi, kədərimi
bölüşmüşəm.
Mən sevgimi, qədərimi
bölüşmüşəm.
Mən dilimi yad gözlərdən qorumuşam,
Mən dilimi yad sözlərdən qorumuşam.
Nənəm onu ağısında,
alqışında gizlədibdir
Babam onu alnındakı
qırışında gizlədibdir.
Əsrlərin küləyindən, yağışından
sinəmizdə daldalanıb.
Yağıların qəzəb yağan baxışından
yağmalanıb.
Bir ocağın odunda da, külündə də
yaşayıb o
Yurdun ən pis günündə də yaşayıb o.
Şəhidinə "rəhmət" deyib
Düşməninə "lənət" deyib
Ana yurda cənnət deyib
yaşayıb o.
Hər qatında bir el dərdi,
Bir yurd dərdi gizləyib o.
Dözüb min bir əzaba da, ağrıya da,
acıya da
Sədaqətlə xoş günləri gözləyib o.
Baldan şirin, dağdan ağır.
Qılıncdan sərt, ana dilim.
Dosta alqış, yara sevgi,
Düşmənə dərd, ana dilim.

*Dördüncü iştirakçı "Vətən" adlı şeirini intonasiya ilə deyir.*

Hamının vətəni var
Qaranın da, ağın da.
Hamı üçün xoş olar
Gəzsə vətən bağında.

Hər vətənin oğlu var,
Qızı var neçə-neçə.
Heç bir torpaq istəməz
Qoynundan yağı keçə.

İstəməz səmasından
Mərmilər yol eləyə.
Keçdiyi hər cığırda
Dəhşəti bol eləyə.

İstəyər çöllərində
Kəhər atlar çapılsın.
Təndirləri qalansın
Tər çörəklər yapılsın.

Hamının vətəni var
Qaranın da, ağın da.
Hamı üçün xoş olar
Gəzsə vətən bağında.

*Beləcə, təxminən 10-12 iştirakçı növbə ilə əzbərlədikləri şeirləri söyləyirlər. Münsiflər heyəti şeir müsabiqəsi qaliblərini müəyyən edir, onlara diplom təqdim edirlər. Həmçinin qaliblərə hədiyyə və şairin müxtəlif adda şeir kitabları verilir.*

**Zəfər nəğməsi – Şuşa**




XXI əsrin 20-ci ilində Azərbaycan xalqı hərb tarixinə özünün döyüş imzasını atdı. Azərbaycan Ordusunun əsgər və zabitləri sevgili Vətən naminə 44 günlük qanlı-qadalı müharibənin hər anına möhür vurdular. Hər kəndimizin, şəhərimizin işğaldan azad olunması bir Zəfər nəğməsinə çevrildi. Bu nəğmənin müəllifləri öz qanları, canları hesabına döyüş meydanında, qanlı çarpışmalarda yeni bir tarix yazdılar. Bu kitabda toplanan 22 əsərdə Birinci və İkinci Qarabağ müharibələri dövrünün savaş ruhu, anaların, balaların ağrı-acısı təsvir olunur, döyüşçü ürəyinin sirləri açılır. Xanım yazarın ağır müharibə yükünü daşıyan incə qəlbindən süzülmüş fəlsəfi məzmunlu, eyni zamanda, dinamik, canlı əsərləri oxucunu ağuşuna alır,

hadisələrin qızğın gedişi onu sonadək özündən ayrılmağa qoymur: kədərləndirir, ruhlandırır, mübarizə əzmini artırır, Zəfər nəğməsini zümzümə etməyə səsləyir.

Sevimli şairəmizin “vətənpərvərlik” mövzusuna həsr etdiyi şeirləri oxuculara çatdırmaq, təbliğ etmək məqsədilə kitabxanada *“Hamının vətəni var”* adlı **dəyirmi masa** keçirilir.
Tədbirə məktəblilər və məktəb müəllimləri dəvət edilir. Kitabxananın oxu zalına toplaşan qonaqları kitabxanaçı salamlayır və Sevinc Nuruqızı və onun yaradıcılığı haqqında məlumata keçid alır.
***Kitabxanaçı:*** Müasir şeirimizin qələmi yorulmaz, nəğməkar şairələrindən biri də Sevinc Nuruqızıdır.Onun poeziyası öz incə, saf səsi ilə çoxdan ürəklərə yol tapıb, çağdaş uşaq ədəbiyyatının mənəvi sərvətinə çevrilmişdir. Onun yaradıcılığı haqqında çox yazılıb, çox deyilib. O, nə yazıbsa, obrazına uyğun gəlirdi. Onun əsərləri zahirini və batinini bütövləşdirirdi. O, sözün həqiqi mənasında uşaq yazarıdır. Onun yaradıcılığı uşaq ruhu üstündə köklənib. Çünki, qələmə aldığı əsərlər hamımız üçün doğma və əzizdir.
Sevinc Nuruqızı ədəbiyyatımızı yeni-yeni obrazlarla zənginləşdirən mahir qələm əhlindəndir. Onun şeirləri, nağılları, hekayələri uşaqların, gənclərin, dilinin əzbəri olmuş, oxucuların dərin rəğbətini qazanmışdır. Onun mövzu dairəsi son dərəcə geniş olmuşdur. O, həyatın nəbzini tutaraq cəmiyyəti narahat edən hadisələri qələmə almışdır: özü də müşahidəçi kimi deyil, həmin hadisələri duyan, onlardan lazımı nəticə çıxaran, ağıllı məsləhətlər verən ana kimi, şairə, yazar kimi. O, özü də yaşadığı müharibə illərindən, erməni vəhşiliklərindən, günahsız uşaqların, heyvanların milli –mədəni irsimiz olan abidələrimiz, ictimai binalar, tarixi muzeylər, mədəniyyət və elm ocaqları, ən əsası isə ta qədim dövrlərə, IV minilliklərdən üzü bu yana var olan xalqımızın ilk insan məskənləri, yaşayış yerləri, tarixi məbədlərimiz, qəbr və qayaüstü rəsm və s. sənət abidələrimizin məhv edilməsi, ermənilər tərəfindən yurd-yuvalarımızın viran qoyulması, ata-baba yurdundan didərgin düşmüş xalqımızın ermənilər tərəfindən günahsızca qətlə yetirilməsi və s. Bunlar hamısı Sevginc Nuruqızının qələmindən ən böyük ustalıq və peşəkarlıqla uşaq dilində yazılmış, uşaqlara, bizim gələcəyimiz olan uşaqlara ən gözəl şəkildə çatdırılmışdır. Onun əsərlərini deyərdim ki, kinoya bənzətmək olar. Sanki hər cümlə, hər fikir bir epizod olaraq insanın gözü önündən keçir. Hər bir əsər öz aktuallığını və reallığını, ən əsası isə canlılığını itirmir.
*Kitabxanaçının çıxışından sonra tədbirdə iştirak edən müəllimlər öz çıxışlarına keçid alır. Zalda təşkil edilmiş kitab sərgisində yer alan kitablardan* ***“Qədim Bakıya səyahət”*** *adlı kitabı əlinə alaraq tədbir iştirakçılarını məlumatlandırır.*
*I Müəllim:* Dəyərli qonaqlar, sevimli məktəblilər, bu gün sevimli yazar Sevinc Nuruqızının “Qədim Bakıya səyahət” adlı kitabı haqqında söhbət açmaq istəyirəm. Kitabda xalq rəssamı Arif Hüseynovun, Abdulla Ələkbərovun və Orxan Hüseynovun əsərlərindən istifadə olunmuşdur. Kitabda UNESCO-nun Dünya Mədəni İrs siyahısına daxil olunmuş İçərişəhərin tarixinə səyahət edilir, şəhərin

abidələri, məhəllələri, məişəti, mətbəxi, oyun və mərasimləri, adət-ənənələri haqqında danışılır. Kitab qədim Bakıya xəyali səyahət etmək istəyən hər bir oxucuya maraqlı bələdçi ola bilər.
*II Müəllim:* Dəyərli tədbir iştirakçıları, mən Sevinc Nuruqızının **"Zəfər nəğməsi Şuşa"** adlı kitabı haqqında danışmaq istəyirəm. Kitabda onun Birinci və İkinci Qarabağ müharibəsinə həsr olunmuş povest, pyes və hekayələri təqdim edilir. Əsərlər zəngin bədiiliyi, fəlsəfi məzmunu, eyni zamaanda həyatiliyi və canlılığı ilə seçilir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab TEAS Press Nəşriyyat evində çapa hazırlanıb. Sevinc Nuruqızının əsəri Qarabağ müharibəsi mövzusunda yazılmış ən yaxşı əsərlərdəndir. Müəllif gənc oxucuya xitab edərək bu sözləri söyləyir:

Şuşadan karvan keçər,
Keçər, nigaran keçər.
Sənə qovuşmaq üçün
Oğullar candan keçər.

XXI əsrin 20-ci illərində Azərbaycan xalqı öz hərb tarixinə öz döyüş imzasını atdı. Azərbaycan ordusunun əsgər və zabitləri sevgili Vətən naminə 44 günlük qanlı-qadalı müharibənin hər anına möhür vurdular. Hər kəndimizin, şəhərimizin işğqaldan azad olunması, bir zəfər nəğməsinə çevrildi. Bu nəğmənin müəllifləri öz qanları, canları hesabına döyüş meydanında, qanlı çarpışmalarda yeni bir tarix yazdılar. Bu kitabda toplanan 22 əsərdə Birinci və İkinci Qarabağ müharibələri dövrünün savaş ruhu, ağrı-acısı təsvir olunur, döyüşçü ürəyinin sirləri açılır. Xanım yazarın ağır müharibə yükünü daşıyan incə qəlbindən süzülmüş fəlsəfi məzmunlu, eyni zamanda, dinamik, canlı əsərləri oxucunu ağuşuna alır, hadisələrin qızğın gedişi onu sonadək özündən ayrılmağa qoymur: kədərləndirir, ruhlandırır, mübarizə əzmini artırır, Zəfər nəğməsini zümzümə etməyə səsləyir.
*III Müəllim:* İstedadlı yazar Sevinc Nuruqızının "Qisas" adlı kitabı erməni vandallarının işğalından və şücaətli ordumuzun torpaqlarımızı xilas etmələrindən, xalqımızın dədə-baba torpaqlarına qayıtmasından söhbət açır.
IV Müəllim: Yazarın **"Pıçıltı"** adlı kitabı haqqında məlumat verir. Kitab erməni terrorunun gərçək üzünü- vəhşiliklərini və pis əməllərini azyaşlı uşaqlara çatdırmaq məqsədi ilə qələmə alınmışdır.
Kitabın ilk səhifəsində yazılır:
UNUTMAYAQ !
Terror-anaları ağrıdır.
Terror-uşaqları ağrıdır.
Terror-oyucaqları ağrıdır.
Yer üzünün uşaqları, oyuncaqları və göyərçinləri terrora yox deyir!

Sizə ən incə, səlis dillə Zəfər savaşımız haqqında həqiqətləri çatdıran Sevinc Nuruqızı - uşaq yazıçısı, şair, tərcüməçi, publisistdir. 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Mədəniyyət” qəzetində baş redaktorun müavini (2003-2006), “Minamedia” nəşriyyat evində “Cırtdan” və “Ümid” uşaq jurnallarının yaradıcı heyətinin direktoru (2006-2007), “İctimai Radio”nun efirində “Çoxbilmiş” və “Nağıl saatı” verilişlərinin redaktoru və aparıcısı (2006-2007), “Göy qurşağı” uşaq jurnalının redaktoru olub (2015-2021). Hazırda “Təhsil” və “Aspoliqraf” nəşriyyatlarında böyük redaktor və uşaq ədəbiyyatı şöbəsinin müdiridir. Qarabağ ağrılarına həsr edilmiş “Qisas” adlı pyesi Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının (2006), “Gəlinciklər” adlı tamaşası Salyan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulub (2006). Azərbaycan, ingilis, Koreya, rus, Belarus, fars dillərində 50-dən artıq kitabı nəşr edilib. Cənubi Koreya Respublikasında üç dildə – Azərbaycan, Koreya və ingilis dillərində “Süräyyanın izində”, Türkiyədə “Melisa” və “Gaga və Hamhamın maceraları”, Belarusda “Bazqulaq i parı qoda” adlı kitabları işıq üzü görüb. “Sərçəcik” və “Bahar qız əfsanəsi” operalarının libretto müəllifidir (bəstəkarı Oqtay Rəcəbov). Müxtəlif illərdə çap olunmuş şeirlərinə, hekayələrinə, poema və dram əsərlərinə görə respublikanın Mədəniyyət və Təhsil nazirliklərinin, bir sıra yaradıcı birliklərin və beynəlxalq təşkilatların mükafatlarını qazanmış, Türkiyənin İLESAM-Akçağ uşaq ədəbiyyatı roman, hekayə və nağıl – 2018 (kitab dosyası) müsabiqəsində roman janrında olan “Melisa” əsərinə görə birinci yerə (2018) layiq görülüb.

Sevinc Nuruqızı qələmini məktəblilərə tanıtmaq üçün aşağı sinif şagirdləri ilə kitabxanalarda keçirilən tədbirlərdən biri də “sənin nağıl dünyan” adlı nağıl saatıdır. Tədbir kitabxananın nağıl otağında keçirilir. Əvvəlcədən kitabxanaya toplaşan məktəblilər yerlərini alır. Kitabxanaçı öz çıxışına keçid alır. Sevinc Nuruqızının bir neçə nağıl kitabları olan masadan “Əlifba” adlı kitabı götürərək, nağılı danışmağa başlayır. Nağıl “Odlar yurdu” adlanır.

***Kitabxanaçı:*** Biri var idi, biri yox idi. Yad ellərdən günlərlə gəlib yol keçən bir karvan var idi. Dəvələr yorulmuş, taqətdən düşmüşdülər. İnsanlar da yorğun və əsəbi idilər. Karvanbaşı onların vəziyyətini görüb əmr etdi:

–Dincəlin... Belə getsə, mənzil başına çata bilmərik.

Onun əmrinə hamı:

–Baş üstə! – dedi.

Dəvələrdən endilər. Dincəlmək üçün rahat yer tapmaq, dəvələri sulamaq lazım idi. Uzaq yol gəlmiş dəvələr əməlli-başlı dincəlməli idilər ki, yollarına davam edə bilsinlər. Orxan adlı bir gənc oğlan ortalığa tökülmüş yükləri yerbəyer etdi. Onsuz da böyüklərdən qabaq oturmaq olmazdı. Orxan işini görüb dərindən nəfəs aldı. Əlini gözünün üstünə qoyub ətrafı nəzərdən keçirdi.

Qəfildən qışqırdı:

– Ola bilməz. Yox, bu ola bilməz. Hamı ona baxdı. Orxan isə onları görmüş kimi öz-özünə deyirdi:

– Od... Alov... Odur, baxın. Orda ocaq yoxdur. Amma alov var. Torpaq yanır...
Hamı Orxan göstərdiyi tərəfə baxdı. Doğurdan da, yerdən alov qalxırdı. Hamı pıçıldadı...
– Nə ocaq var, nə ocaq yeri. Amma torpaq yanır. Bu necə işdir?
Orxan dedi:
–Bura odlar yurdudur.
O zamandan bu yerin adı Odlar yurdu qaldı. Bura bizim Azərbaycan, alovlanan isə sonralar insanların "Yanar dağ" adlandırdığı qeyri-adi dağ idi.
Kitabxanaçı nağılı bitirdikdən sonra məktəblilərə suallar ünvanladı. Nağıldan təsirlənən məktəblilər bu haqda fikir bildirdi. Onlar Odlar Yurdu Azərbaycan haqqında tapmaca, atalar sözləri və şeirlər dedilər. Hərfləri yenicə öyrənən məktəblilərin yaddaşını artırmaq üçün onlarla maraqlı və bir o qədər də məntiqi oyuna dəvət edən kitabxanaçı nağıldan bir hissəni –Səsli Əlifba olan hissəyə keçid alır.
Hansı hərfin haqqında danışılırsa, o hərfi üzərində daşıyan uşaq önə çıxır.
Kitabxanaçı:
Ağzını aç, boğazına baxım! *A-a-a*
Uşaq necə yemək istətir? *Nəm-nəm...*
Dərman içəndə nə edirsən? *Əəəəə...*
Tısbağa necə edir? *Tıs-tıs...*
Çəkic əlini əzəndə necə edirsən? *Offff...*
Sevinəndə necə qışqırırsan? *Urraaa – urraaa...*
Nağara səsi necə olur? *Rappada-ruppada...*
Necə nəğmə oxuyurlar? *Lya-lya-lya...*
Dolu daşa dəyəndə necə səslənir? *Danq-daranq...*
İt necə hirslənir? *Mrrrr...*
İlan necə edir? *Fıs-fıs...*
Beləliklə, bütün hərflər sıralanır. Daha sonra Sevinc Nuruqızının İşıqfor şeiri səhnələşdirilir.

***I İştirakçı:*** Yatmaq istədi
Bir gün işıqfor.
***II İştirakçı:*** Dedi: - Yatmasam,
Olacağam kor.
***İ İştirakçı:*** Gözlərin yumub
Xoruldadı o.
Nə işıq saçdı,
Parıldadı o.
Yuxusu yaman
Şipşirin idi.
Külək əsirdi
Çox sərin idi.

Qəfildən yuxu
Gördü işıqfor.
Gördü ki, dolub
Maşınlarla yol.
Maşınlar ona
Deyirlər laylay.
Göydən onlara
Yol göstərir ay.
Gah yaşıl olur,
Gah da qırmızı.
Maşınlar aydan
Qalıblar razı.
Şütüyüb ötür
Onlar həvəslə.
Nəğmə deyirlər
Çox hündür səslə:
-Yat, işıqfor, yat
Gözəldir həyat.
Açıqdır yollar
Səmada ay var.
Aydan bizlərə
İşıqlı pay var.
Səksənib durdu
Bu an işıqfor.
Gördü ki, dolub
Maşınlarla yol.
Yandı gözləri
Yaşıl, qırmızı.
Maşınlar ondan
Qaldılar razı.

Çağdaş uşaq ədəbiyyatımızın sevilən siması Sevinc Nuruqızı yaradıcılığını oxucu audutoriyasına bir daha sevdirmək məqsədilə kitabxanada keçirilən silsilə tədbirlərdən biri də *"Zəfər nəğməli şairim mənim*" adlı **müəlliflə görüşdür.** Tədbir kitabxananın oxu zalına toplaşan məktəblilərə Sevinc Nuruqızının imzası ilə yazılan kitabların tanıtımı ilə başlayır. Tədbirin məqsədi məktəblilərə oxu vərdişini aşılamaq və onlarda nağıl duyumunu artırmaqdır. Müəllifin dilindən söylənən nağıllar uşaqlarda qiraətə maraq məqsədi daşıyır. Tədbiri açıq elan edən kitabxanaçı kiçik oxuculara ədib haqqında məlumat verdikdən sonra, ilk olaraq aparıcıları səhnəyə dəvət edir. Aparıcılar səhnəyə daxil olur.

Sevinc Nuruqızının atəşindən bir qor, bir qığılcım almaq üçün, onun gözəl şeirlərini bir daha dinləmək, bir daha hiss etmək üçün ədəbi-bədii gecə keçirmək məqsədəuyğundur. "Məhsuldar ömür adamı" başlığı altında ədəbi-bədii gecə

keçirilir. Tədbirin birinci hissəsi ədəbi, ikinci hissəsi isə bədii olur. Birinci hissədə çıxışlar və məruzələr dinlənilir, qonaqlara söz verilir. İkinci hissədə isə, Sevinc Nuruqızı yaradıcılığına müraciət olunur. Tədbirə bir çox şair və yazıçılar, Əməkdar incəsənət xadimləri, eyni zamanda ədəbiyyat müəllimləri və şagirdlər dəvət olunur. Tədbirdə şairənin qələmə aldığı, toxunduğu hər bir mövzu haqqında söhbət açılır. Səhnə şairənin şeirləri və onun haqqında yazılmış sitatlarla bəzədilir. Tədbirdə onun şeirləri dinlənilir, poemalarından kiçik hissələr səhnələşdirilir.

**I aparıcı:** Əziz və hörmətli qonaqlar! Sizi F. Köçərli adına Respublika Uşaq Kitabxanasında xoş gördük! Bu gün hamımız buraya kövrək ruhlu, usta qələm, incə qəlb sahibi gözəl şairəmiz Sevinc Nuruqızının qələmindən süzülən gözəlliyə, ondan söhbət açmağa, şeirlərini, nağıllarını oz dilindən dönə- dönə dinləməyə, bir sözlə, onun qaynar qəlbindən bir parça qor almaq üçün toplanmışıq. İllərdir kitablarını oxuyaraq əsərlərlə tanış olduğunuz şairə ilə görüş olduqca maraqlıdır, elə deyilmi?

**II aparıcı:** Əziz uşaqlar! Bu günlərdə hamımızın sevimlisi uzun illər "Göy qurşağı" uşaq jurnalının redaktoru olmuş yazıçı, şair, tərcüməçi, publisist Sevinc Nuruqızının doğum günüdür. Gələcəyin təminatçısı olan siz uşaqlara bəxş etdiyi gözəl, maraqlı kitablar onun məhsuldar ömür yolunun xəbərçisidir. Biz də sevimli yazarımızı təbrik edirik. Hər zaman uşaqlar üçün yazın, yaradın. Yazan əlləriniz var olsun, 60 yaşlı, uşaq qəlbli, səmimi, mehriban Sevinc xanım! Yubiley və doğum gününüz mübarək!

**I aparıcı:** Sevinc xanım, bu gün sizi görməyə gələn onlarla məktəblimizin sevincinin həddi-hüdudu yoxdur. Onların sizə töhfəsi elə sizin öz qələminizdən axıb süzülən şeirlər, nağıllardır. Bir də onların sizin haqqınızda, nağıllardakı obrazlar haqqında verəcəyi suallar. Axı onlar bilmək istəyir, "Şah İsmayıl Xətai" ni necə yazdınız?, Bəs "Ağabəyim ağa", "Babək" i ?.. "Muradın Yuxusu" çin çıxdımı?, Necə gördü o qədər yeməkləri Murad öz yuxusunda?, Nənəsinin sözü ilə necə çəkindi çox yeməkdən?..., Bəs "Xortumlu Dağ" necə, qarışqanın kiçik dünyasından başlanan nağıl necə fillə sonlandı?..

**II aparıcı:** Sevimli məktəblilər, sizin Sevinc Nuruqızını kitablarını sevə-sevə oxuduğunuzu kitabxanamıza abunə yazılmağınızdan və şairənin kitablarının sevimli oxucusu olmağınızdan bilirik. İstərdik ki, bu rəğbəti yazarın özü də görsün. Elə isə sizə bir neçə suallar ünvanlamaq istəyirəm.

*Siz baxmayın, a dostlar,*
*Gözlərimin yaşına.*
*Çox əcayib iş gəldi,*
*Mən xoruzun başına...*

Dostlar, bu misralar Sevinc Nuruqızının hansı kitabından seçmələrdir? (Ağ xoruzun hekayəti)

Bəs bu sətirlər necə?

*Heç ovcunuzda qar dənəsi qondumu? Qonubsa, yəqin diqqətlə onun quruluşuna baxmısınız. Amma əmin olun ki, o quruluşda başqa bir qar dənəsi yoxdur. Onlardan heç biri digərinə bənzəmir...*
Tanıdınızmı bu nağılı? (Fəsillər. Gəlin tanış olaq")
Elə isə gəlin növbəti suala keçid alaq. Diqqətlə dinləyin.
Deyin görüm, nə edirsiz orada?!
Gizlənqaç oynayırıq...
*Rəflərdəki bütün paltarlar siyirməyə sarı boylandılar. Hamı gecəyarı baş verən yüngül narahatlığın səbəbin anlamağa başlamışdı. Amma hələ də sual verirdilər. Yuxarı rəfdəki şalvarlar gülüşürdülər...*
Deyə bilərsinizmi bu sətirlər yazarın hansı kitabındandır? (Paltar dolabında gizlənqaç).
**I aparıcı**: Dəyərli dostlar, görürəm ki, siz Yazarın fəal oxucularındansınız. Mən də sizə sual ünvanlamaq istərdim:

Qıpqırmızı donunda
Vardı qara xalları.
Kimi desən gətirər
Tanıyır o yolları

Deyin görək tanıdınızmı bu tapmacanın yer aldığı kitabı? (Tap tapmaca).
Görürəm ki, siz kitabları oxumuş, əsərlər ilə yaxşıca tanış olmusunuz. Gəlin sizə bir nağıl da mən oxuyum. Bu nağıl Sevinc Nuruqızının "Aysu və Ay" nağılıdır. Dinləyin:
*Qaranlıq bir gecə idi. Balaca Aysu pəncərədən ulduzlara baxıb dedi:*
*-Parıldayırlar. Elə bil işıldaböcəklərdir. Amma anam deyir ki, göydə işıldaböcək olmaz. Onlar ulduzlardır.*
*Aysu danışa-danışa səmaya diqqətlə baxdı. Birdən göydə Ayı gördü. Təəccüblə dedi:*
*-A...a...a... Yemiş diliminə oxşayır. Mən yemiş istəyirəm.*
*Aysu ağladı:*
*- Yemiş istəyirəm... Verin yemiş dilimini mənə...*
Hə dostlar, maraqlıdır, deyilmi, elə isə nağıln sonrasını kitabxanamızdan bu kitabı alıb oxumaqla öyrənə bilərsiniz.
***II aparıcı:*** Dəyərli qonaqlar, tədbirimizə gələ bilməyən neçə neçə məktəbli dostlar var. Onlar da Sevinc Nuruqızının daimi oxucularındandır. Onların hər biri həm bizə bizə, həm Sevinc xanıma çoxlu məktublar yazıb. Gəlin sizlərlə bərabər o məktubları dəyərli yazarımız Sevinc Nuruqızına oxuyaq.
Salam, Sevinc xanım. Mən sizə Melisa anam barədə danışmaq istəyirəm. Yox, yox barədə...
Kitabxanada idim. Oxuduğum kitabı qaytarıb, yenisi ilə əvəzləyirdim. O isə rəngarəng rəflərdən mənə boylanan nəfis kitabların önündə durmuşdu. Melisa. Çəhrayı saçları kitabın üzərinə tökülmüşdü. Nə gözəl dizayndır. Yaxınlaşıb yun saçlarını barmaqlarımla oxşamağa başladım, sanki bundan xoşhal olub mənə gülümsədi. Bir an körpə uşaq kimi qucağıma atıldı sanki Melisa, məni də götür deyə. Götürüb evə gəldim. Vərəqlədim. Ucadan oxumağa başladım. Oxuduqca özümdən uzaqlaşırdım, uzandığım çarpayını belə unudub, özümü böyük tor səbətin dəmir

millərindən tutub alıcısını gözləyən Melisanın yanında, elə həmin tor səbətində hiss etdim. Bir nəfəsə oxuyurdum. Gözəl Melisanın ağrılı taleyi nitqimə süzülürdü sanki. Birdən anamın hıçqırtısını eşitdim. Deməyəsən anam körpəlikdə dəcəl qız olub və o öz gəlinciyinə çox əziyyət veribmiş. Melisanın taleyi ona məhz öz gəlinciyini xatırlatdı. Anam kədərli səslə dedi ki, mən öz gəlinciyimin hay-harayını illər sonra eşidə bildim. Mən kitabı oxuyar-oxumaz o Melisanı çantasına qoydu və pıçıltısını eşitdim: “Sabah dərsdə bu kitabı mütləq şagirdlərimə oxuyacağam”... Sonrakı sözləri daha astadan dediyi üçün eşidə bilmədim. Axı anam müəllimədir...
***I aparıcı:*** Növbəti məktub.

Salam, Sevinc Nuruqızı, mən çox şadam ki, sizi tanıdım. Bilirsiniz haradan? Azərbaycanın paytaxtı Bakı şəhərində yerləşən sərgi mərkəzindən. Yəni, Bakı Ekspo Mərkəzindən. Mərkəzdə təşkil olunan sərgidə sizin “Pıçıltı” adlı kitabınızı gördüm. Gözəl illüstrasiya olunmuş kitabın üz qabığı məni özünə cəlb etdi. Yaxınlaşıb əlimə götürdüm. Üstündəki pişik, dovşan və mavi donlu gəlinciyin taleyi məndə maraq oyatdı. Çox xoşbəxtəm ki, mən bu kitabı oxudum. Mənfur düşmənlərimizin xalqımıza qarşı törətdiyi amansızlığı hər zaman görür və qınayırdıq, ancaq əminliklə deyə bilərəm ki, mən onun ağrısını bu qədər qəlbimdə hiss etməmişdim. Mən sanki Gəncə terroru zamanı günahsız qətlə yetirilən uşaqlar ilə birgə yaralanıb, onlarla uçurum altında qalıb, birgə həyata gözlərimi yumdum. Hər sətirdə müharibə o qədər canlı təsvir edilib ki. Terror və terrorçuları ürəkdən qınayıram. O kitabdakı bütün sətirləri, xüsusən Bozuşun Portağala sualı, “Terorist?... Terrorist hansı heyvandır, axı mən terrorist adında heyvan tanımıram. Terrorist vəhşi və yırtıcı insandır”, sözlərini heç vaxt unutmayacağam.
Tədbirin sonunda uşaqların sevimli yazarı, uşaq dilinin səlis sərrafı Sevinc Nuruqızı uşaqlara “Qürbətdə bitməyən Çiçək” adlı kitabını oxudu.

**Ədəbiyyat siyahısı:**
**Kitabları**

A hərfini öyrənək : hərflər. - Bakı : Təhsil, 2018. - 8 s.
Ağ xoruzun hekayəti : şeir. - Bakı : CBS Polygraphic production, 2005. - 11 s.
Ağabəyim ağa. - Bakı : Aspoliqraf, 2010. - 16 s.
Ağca və Cubbulu : Sonu Zəfərlə bitən hekayə. - Bakı : Təhsil, 2023. - 24 s.
Ağca və Cubbulu. - Bakı : Təhsil, 2009. - 12 s.
Aysu və Ay. - Bakı : Təhsil, 2009. - 12 s.
B hərfini öyrənək : hərflər. - Bakı : Təhsil, 2018. - 8 s.
Babək : nağıl. - Bakı : Aspoliqraf, 2010. - 16 s.
Bapbalaca əlifba : Nağıllı, şeirli, tapmacalı, yanıltmaclı və şəkilli əlifba. - Bakı : Aspoliqraf, 2010. - 196 s.
Bozqulaq və fəsillər : nağıl və şeir. - Bakı : Təhsil, 2008. - 16 s.
C hərfini öyrənək : hərflər. - Bakı : Təhsil, 2018. - 8 s.
Ciya ilə iki gün : nağıl. - Bakı : Oskar, 2007. - 31 s.
Ç hərfini öyrənək : hərflər. - Bakı : Təhsil, 2018. - 8 s.

Çərpələng : poeziya. - Bakı : Adiloğlu, 2002. - 108 s.
D hərfini öyrənək : hərflər. - Bakı : Təhsil, 2018. - 12 s.
Duman pəriləri Şuşa. - Bakı : Təhsil, 2023. - 104 s.
E hərfini öyrənək : hərflər. - Bakı : Təhsil, 2018. - 12 s.
Ev heyvanları : Qəribə kəndin nağılı. - Bakı : Təhsil, 2008. - 16 s.
Fəsillər : Bozqulaq və fəsillər. - Bakı : Təhsil, 2008. - 16 s.
Geyimlər : Paltar dolabında gizlənqaç. - Bakı : Təhsil, 2008. - 12 s.
Xortumlu dağ : nağıl. - Bakı : Aspoliqraf, 2010. - 23 s.
İpəkcənin macəraları : nağıl. - Bakı : Oskar, 2007. - 23 s.
Qəribə kəndin nağılı : Dünya ədəbiyyatından seçmələr. - Bakı : Təhsil, 2008. - 16 s.
Qızıl axtarışında. - Bakı : Təhsil, 2023. - 40 s.
Qisas. - Bakı : Vektor, 2005. - 140 s.
Qürbətdə bitməyən çiçək. - Bakı : Aspoliqraf, 2022. - 16 s.
Melisa : nağıl-povest. - Bakı : Təhsil, 2021. - 112 s.
Mənim bir günüm. - Bakı : Təhsil, 2023. - 24 s.
Muradın yuxusu : poeziya. - Bakı : Təhsil, 2008. - 8 s.
Paltar dolabında gizlənqaç : nağıl. - Bakı : Təhsil, 2008. - 12 s.
Pıçıltı. - Bakı : Təhsil, 2022. - 88 s.
Şah İsmayıl Xətai. - Bakı : Aspoliqraf, 2010. - 16 s.
Tap-tapmaca. - Bakı : Təhsil, 2009. - 12 s.
Yeməklər : Muradın yuxusu. - Bakı : Təhsil, 2008. - 16 s.
Zəfər nəğməsi - Şuşa. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2022. - 244 s.

**Tərcümə və tərtib etdiyi kitablar**

**Amanova S.** Gəncə xəzinəsi / tərc.ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2010. - 20 s.
**Amanova S**. Xurcun : İş dəftəri / tərc.ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2011. - 32 s.
**Amanova S**. Xurcun : nağıl / tərc.ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2010. - 32 s.
**Amanova S**. İnsan iz qoyur / tərc.ed. S. Nuruqızı. - Bakı : OSKAR NPM, 2004. - 172 s.
**Amanova S**. İrs : 1-2-ci sinif müəllimləri üçün vəsait / tərc. S. Nuruqızı. - Bakı : Təhsil, 2010. - 116 s.
**Amanova S**. Qızıl hərflər. Gül saatı : nağıl / tərc.ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2009. - 34 s.
**Amanova S**. Su satan Abbas, Bülbül və Qızılgül haqqında nağıl / tərc.ed. S. Nuruqızı. - Bakı : Oskar, 2002. - 16 s.
**Amanova S**. Turac : nağıl: sinifdənxaric oxu üçün / tərc.ed. S. Nuruqızı. - Bakı : OSKAR NPM, 2009. - 20 s.
Cücələr : Şeirlər toplusu / red., tərt.ed. S. Nuruqızı. - Bakı : Aspoliqraf, 2009; 2013. - 32 s.
Dədə Qorqud / işləyən S. Nuruqızı. - Bakı : Təhsil, 2009. - 68 s.
Dünya xalqlarının nağılları**:** İssumbosi / tərc.ed. S. Nuruqızı. - Bakı : Aspoliqraf, 2010. - 16 s.

Dünya xalqlarının nağılları**:** Üç tenqu və porsuq : nağıl / tərc.ed. S. Nuruqızı. - Bakı : Aspoliqraf, 2010. - 16 s.
**Əsgərova G**. Xanın üç qızı / tərc.ed. S. Nuruqızı. - Bakı : Radius, 2020. - 64 s.
Günəşdən gələn pay : nağıl və hekayələr / tərt.ed., rus dil. tərc.ed. S. Nuruqızı. - Bakı : Aspoliqraf, 2013. - 88 s.
**Karlyukeviç A. N**. Dələ inşa yazır : nağıllar: kiçik məktəbyaşlı uşaqlar üçün nağıllar / rus dil. tərc.ed., red. S. Nuruqızı. - Bakı : Təhsil, 2013. - 88 s.
**Karlyukeviç A. N**. Şuburşunun macəraları : kiçik məktəbyaşlı uşaqlar üçün / tərc. ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2015. - 64 s.
**Məmmədquluzadə C**. Quzu / tərt.ed. S. Nuruqızı. - Bakı : Aspoliqraf, 2010. - 28 s.
Nağıla bax, nağıla / tərt. ed., tərc.ed. S. Nuruqızı. **I hissə**. - Bakı : Aspoliqraf, 2012. - 88 s.
Nağıla bax, nağıla / tərt. ed., tərc.ed. S. Nuruqızı. **II hissə**. - Bakı : Aspoliqraf, 2012. - 88 s.
Nağıllar / tərc.ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2009; 2013. - 36 s.
Sarı ağacdələn ordeni : nağıl və hekayələr / tərt.ed., rus dil. tərc.ed. S. Nuruqızı. - Bakı : Təhsil, 2013. - 88 s.
Türk dünyasının göy qurşağı / tərc.ed., red. S. Nuruqızı. - Bakı : Təhsil, 2021. - 80 s.

**Əsərləri dövri mətbuatda**

Ağabəyim ağa : hekayə // Savalan. - 2021. - 22-30 iyun. - № 22. - S. 3, 8.
Ay səni Bozuş! : nağıl // Göy qurşağı. - 2013. - № 6. - S. 7.
Azərbaycan ; Bax, bu vətəndir ; Arı və b. şeirlər // Kaspi. - 2016. - 29 oktyabr. - № 175. - S. 21.
Bala timsah : nağıl // Savalan. - 2014. - 13-19 iyun. - № 44/45. - S. 8.
Balaca qarışqalar ve yeke fil : hekayə // Göy qurşağı. - 2020. - № 1. - S. 12-13.
Bir bədənin iki başı : hekayə // Savalan. - 2007. - 6 - 8 fevral. - S.4.
Bir bədənin iki başı : hekayə // Savalan. - 2014. - 15-21 iyul. - № 53/54. - S. 8.
Bozqulaq "dost" düzəldir : nağıl // Göy qurşağı. - 2024. - № 01(81). - S. 6.
Camalın yuxusu : şeir // Göy qurşağı. - 2018. - № 2. - S. 3.
Cek fənəri və Hellouin hədiyyələri : hekayə // Göy qurşağı. - 2018. - № 4. - S. 8-9.
Dağ başında Şam Şuşa // Ulduz. - 2021. - N 2 (621). - S. 19-21.
Dostoyevski və müharibələr : dahinin avand və tərs üzü // Qobustan. - 2018. - № 3. - S. 50-52.
Duman pəriləri : hekayə // Göy qurşağı. - 2023. - № 2(78). - S. 8-9.
Elə payız gələni : şeir // Göyərçin. - 2024. - № 10. - S. 5.
Əsgərlər üçün nahar yeməyi // Göy qurşağı. - 2021. - № Xüsusi Buraxılış. - S. 22-23.
Əsl dost : hekayə // Savalan. - 2018. - 13-19 noyabr. - № 51. - S. 3.
Gəlincik ; Telefon köşkündəki pişik : hekayələr // Azərbaycan : jurnal. - 2020. - № 2. - S. 136-
139.

Günəş, buludlar və Ağca : hekayə // Ədəbiyyat qəzeti. - 2020. - 25 aprel. - № 11. - S. 32.
İki dost qaçırdı... : hekayə // Savalan. - 2013. - 1-4 noyabr. - № 81. - S. 8.
Kəpənək ömrü : hekayə // 525-ci qəzet. - 2020. - 24 oktyabr. - № 139. - S. 20.
Kitablar : şeir // Göy qurşağı. - 2019. - № Xüsusi Buraxılış. - S. 2.
Qaraqaya haqqında nağıl : hekayə // Savalan. - 2011. - 25-30 noyabr. - № 62/63. - S. 3.
Qılınc həmin qılıncdır : hekayə // Savalan. - 2016. - 19-22 fevral. - № 11. - S. 3.
Qılınc həmin qılıncdır : hekayə // Savalan. - 2020. - 17-30 mart. - № 10. - S. 5.
Qılınc həmin qılıncdır : hekayə // Savalan. - 2024. - 10-16 sentyabr. - № 34. - S. 5.
Qış... Qar... Quşlar... : şeir // Göy qurşağı. - 2019. - № Xüsusi buraxılış 2020. - S. 2.
Meşədə Yeni il : hekayə // Göy qurşağı. - 2018. - № 6. - S. 6-7.
Mənim anam ; Təmizkar ; Alma və s. // Tumurcuq. - 2012. - № 9(161). - S. 9.
Paxıl çəmən : hekayə // Savalan. - 2014. - 17-23 yanvar. - № 3/4. - S. 8.
Saqlana : hekayə // Göy qurşağı. - 2020. - № 4. - S. 4-5.
Sarışınla qəribə çiçəyin görüşü : nağıl // Savalan. - 2024. - 30-31 iyul. - № 28. - S. 3.
Siçan bala ; Xəstəlik ; Səbəb nədir və b. şeirlər // Ulduz. - 2008. - № 3. - S. 69-71.
Sırğalı : Hekayə // Savalan. - 2007 16 - 19 fevral. - S.6. .
Sırğalı : hekayə // Savalan. - 2024. - 10-16 dekabr. - № 46. - S. 8.

Haqqında dövri mətbuatda

Abasova L. Sevinc Nuruqızının "Ağca və Cubbulu" əsərinin quruluşu, redaktəsi və nəşri
məsələləri // Ulduz. - 2022. - № 01(632). - S. 69-72.
Akimova E. Uşaq ədəbiyyatının yeni qəhrəmanları: onları tanıyırıqmı? // Azərbaycan : jurnal. -
2020. - № 2. - S. 153-157. - Uşaq ədəbiyyatı.
Əvəzqızı M. Tanrı payı : Uşaq yazıçısı Sevinc Nuruqızı haqqında // Naşir. - 2015. - № 1. - S.
100-104.
Xəyalə. Hans Kristian Andersen mükafatına azərbaycanlı namizəd // Palitra. - 2013. - 20 avqust.
- № 149. - S. 15.
Pulkənd E. Böyüklər üçün uşaq şeirləri : Sevinc Nuruqızı öz şeirlərində çoxsaylı hədəfləri bir
atəşlə vurur // Kaspi. - 2015. - 11 aprel. - № 63. - S. 10.
Rəşid M. Uşaqların Sevinci // 525-ci qəzet. - 2020. - 13 iyun. - № 52. - S. 19.
Salam, uşaq! Kuklalar... // Ədəbiyyat qəzeti. - 2019. - 13 aprel. - № 12. - S. 26.
Uşaq ədəbiyyatının problemlər : "Ədəbiyyat qəzeti"nin müzakirə saatı // Ədəbiyyat qəzeti. -
2017. - 28 yanvar. - № 3. - S. 10-13. ; 4 fevral. - № 4. - S.10-13